# UŞAQ ƏDƏBİYYATININ SİSTEMLİ TƏDQİQAT NÜMUNƏSİ

***Azərbaycan Uşaq ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələlərini müəyyənləşdirmək, onun ayrı-ayrı ədəbi -tarixi şəxsiyyətlərinin maarifçilik missiyasını gənc nəslə çatdırmaq milli ədəbiyyatşünaslığımızın əsas vəzifələrindən biri kimi həmişə diqqət mərkəzində olmuşdur.***




Ədəbiyyat tariximizin tarixi kökləri çox qədimlərə gedib çıxmasına baxmayaraq, ədəbi- tarixi prosesin mühüm bir qolu kimi uşaq ədəbiyyatının özünütəsdiqi və sistemli bir yaradıcılıq sahəsi kimi özünü göstərməsi XX əsrin ilk onilliklərinə təsadüf edir. Odur ki, görkəmli Azərbaycan tənqidçisi Məmməd Arif bu sahəni ən cavan yaradıcılıq sahəsi kimi dəyərləndirmişdir.

**F.Köçərli, A.Şaiq, A.Səhhət, R.Əfəndiyev, M.Ə.Sabir** kimi böyük maarifpərvər ziyalılarımız XX əsrin əvvəllərində yeni uşaq dərslikləri hazırlamış, onun elmi-nəzəri, ideya-mənəvi istiqamətlərini müəyyənləşdirməyə çalışmışlar. Bunun üçün uşaq təfəkkürünə uyğun olan rus və dünya ədəbiyyatından əsərlər tərcümə etmiş, özləri yeni uşaq ədəbiyyatı nümunələri meydana çıxarmış və yaratdıqları dərsliklərdə həmin materialları nəşr etdirmişlər.

XX əsrin əvvəllərindən etibarən uşaq ədəbiyyatı məsələləri ədəbi-tarixi prosesin mühüm bir faktoru kimi həmişə tənqid və ədəbiyyatşünaslığımızın diqqət mərkəzində olmuş, ədəbiyyat tarixçilərimiz bu yaradıcılıq sahəsinə diqqət və qayğını heç vaxt əsirgəməmişlər. Azərbaycan ədəbiyyatşünaslarından Əbdül Əzizov, Qara Namazov, Əflatun Məmmədov, Zahid Xəlil və başqaları Azərbaycan uşaq ədəbiyyatının janr xüsusiyyətləri, ideya-mənəvi keyfiyyətləri və nəzəri əsasları haqqında sanballı tədqiqat əsərləri meydana çıxarmışlar.

Ancaq təəssüf ki, son onilliklərdə ictimai-siyasi proseslərin sürətlə bir-birini əvəz etdiyi bir dövrdə ədəbiyyatımızın bir sıra sahələri kimi, uşaq ədəbiyyatına və onun elmi nəzəri əsaslarının öyrənilməsinə də diqqət və qayğı xeyli dərəcədə azalıb. Hal-hazırda uşaq ədəbiyyatının tarixi və nəzəriyyəsinin yeni müstəqillik dövrünün tələblərinə uyğun yenidən yazılması tarixi zərurət kəsb edir. Tədqiqatçı **Rafiq Yusifoğlunun "Uşaq ədəbiyyatı"** kitabı ədəbiyyat tarixində bu boşluğu doldurmaq üçün yazılıb. Kitab Təhsil Nazirliyinin qərarı ilə dərs vəsaiti kimi təsdiq olunub.

Müəllif düzgün olaraq xalq yaradıcılığına - folklora xüsusi diqqət yetirmiş, şifahi xalq ədəbiyyatı və onun xüsusiyyətlərinə, milli folklorun növlərinə, nağıllara, atalar sözləri və məsəllərə, lətifələrə uşaq ədəbiyyatının əsas qaynaqlarından biri kimi xüsusi diqqət yetirmişdir.

**"Uşaq ədəbiyyatı"** kitabında müəllif ədəbi ənənələrə, varislik prinsiplərinə uyğun olaraq Azərbaycan klassiklərinin və müasir yazıçıların yaradıcılığında uşaq ədəbiyyatı nümunələrindən parçalar vermiş, onların hər birinin həyat və yaradıcılığı barəsində ətraflı danışmışdır.

Bayaq qeyd etdiyimiz kimi, Azərbaycan uşaq ədəbiyyatı müstəqil bir yaradıcılıq sahəsi, ədəbi prosesin mühüm bir qolu kimi XX əsrin əvvəllərində yaransa da, klassik ədəbi-bədii irsimizdə bu ədəbiyyatın maraqlı nümunələri var. Bu gerçəklik və reallıqla bağlıdır ki, dərs vəsaitində Ə.Xəqani, N.Gəncəvi, M.Füzuli irsinin gənc nəslin təlim-tərbiyəsində, təfəkkürünün və nitqinin formalaşmasında, mühakimə qabiliyyətinin , zənginləşməsində rolu və mövqeyi aydınlaşdırıldıqdan sonra, növbəti tarixi dövrlərə işıq salınmış, **A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani** və başqalarının timsalında maarifçi realist ədəbiyyatın bu sahə ilə bağlı konseptual baxışlarına xüsusi diqqət yetirilmişdir.

**"Uşaq ədəbiyyatı"** kitabında XX əsrin uşaq ədəbiyyatı məsələlərinə daha çox yer verilmiş, bu faktorun gerçəkləşməsində milli mətbuatın gördüyü işlər barəsində geniş danışılmış, **"Molla Nəsrəddin", "Zənbur", "Məzəli", "Dəbistan"** və **"İrşad"** kim mətbuat orqanlarının uşaq ədəbiyyatı ilə bağlı gördüyü işlər elmi dəlillərlə əsaslandırılmışdır.

Kitabda müasir Azərbaycan yazıçılarının yaradıcılığına da xüsusi önəm verilib. Burada **R. Rza, M.Dilbazi, Z.Cabbarzadə, H.Ziya, T.Mütəllimov, M.Aslan** və s. şairlərin yaradıcılığından bəhs edilmiş, əsərlərindən parçalar verilmişdir.

**Bizə belə gəlir ki, Rafiq Yusifoğlunun "Uşaq ədəbiyyatı" adlı dərs vəsaiti ali məktəb tələbələri və müəllimləri, orta məktəb şagirdləri, uşaq ədəbiyyatının tarixi və nəzəriyyəsi ilə məşğul olan mütəxəssislər və müstəqil araşdırıcılar tərəfindən maraqla qarşılanacaqdır.**

**Xanım MUSTAFAYEVA,**
*MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı*

# QEYRƏT SİYASİ BLOKLARA QOŞULMAYACAQ



Prezident seçkilərindən sonra bir sıra partiyanın mövqeyində dəyişikliyin edilməsi müşahidə olunur. Qeyrət Partiyasının baş katibi Əşrəf Mehdiyev bildirib ki, rəhbərlik etdiyi partiya heç bir mövqe dəyişikliyi etmək fikrində deyil: "Partiyanın strateji və ideoloji xəttində hər hansı dəyişikliyin edilməsi nəzərdə tutulmayıb. Qeyrət Partiyası öz mövqeyini dəyişməz saxlayacaq".

Baş katibin sözlərinə görə, heç bir partiya ilə əməkdaşlıq etməyəcəklər: "Bizim bütün partiyalara hörmətimiz var. Buna baxmayaraq, heç bir bloka daxil olmaq fikrimiz yoxdur. Çünki bir dəfə bloka daxil olmuşuq. Orada xoşagəlməz hadisə ilə rastlaşmışıq. Ona görə partiya qərara alıb ki, müstəqil fəaliyyət göstərsin".

# Axtarışda olan əsgər tutuldu



Azərbaycan Respublikasının CM-nin 333.4 maddəsi ilə axtarışda olan "N"saylı hərbi hissənin əsgəri, Şərur rayonun Çərçiboğan kəndində doğulmuş Məmmədov Babək Elşən oğlu 1 noyabr 2003-cü il tarixdə rayon polis işçilərinin əməliyyat- axtarış tədbirləri nəticəsində tutulmuşdur.

# Bəzək əşyaları oğrusu



Şərur rayon Yengicə kəndində yaşayan, əvvələr məhkum olunmuş, Cəfərov Əli Yaqut oğlu həmkəndlisinin evindən oğurluq etmişdir. O, Abdullayev Aslan Hamlet oğluna məxsus evin pəncərəsini sındıraraq 3.880.000 manat dəyərində müxtəlif çeşidli qızıl-bəzək əşyaları oğurlayıb. Faktla bağlı cinayət işi qaldırılıb.

# Televizor oğrusu yaxalandı



Şərur şəhəri, Şəhriyar küçəsi 8-də yaşayan Allahverdiyev Ruslan rayonun Çərçiboğan kənd sakini Seyidov Səlim Mirismayıl oğluna məxsus yeməkxanadan 1 ədəd "Şvarski" markalı televizor oğurlamaşdır. Ancaq o polis işçilərinin əlindən canını qurtara bilmədi. Özü öz səhvini etiraf etsə də artıq gec idi.

# Saxta dərman alverçisi məlum oldu



İran İslam Respublikasının vətəndaşı olan Basuli Qulamrza Məmmədəli oğlu Naxçıvan MR Daxili İşlər Nazirliyinə şikayət ərizəsi ilə müraciət etmişdir. Ərizədə qeyd edilir ki, 16.10.2003-cü il tarixdə Babək rayon Qahab kənd sakini Əliyev Novruz Səfər oğlu dələduzluq edərək ona saxta dərman ləvazimatı satmışdır. Məlum olmuşdur ki, Novruz Əliyev İran vətəndaşından 5 ədəd hər biri 5.000.000 dəyərində, ümumi məbləği isə 25.000000 reallıq, yəni 14750000 manatlıq İİR-nin Bank çeklərini almışdır.

Novruz Əliyevin törətdiyi bu dələduzluq əməli ilə əlaqədar olaraq cinayət işi qaldırılıb.

**Heydər həsənov**
*Naxçıvan*

# "DİALOQ QEYD-ŞƏRTSİZ OLMALIDIR"

**"İqtidar-müxalifət dialoqu reallaşmalıdır. Tərəflər üçün bundan başqa çıxış yolu yoxdur". Bunu deyən keçmiş spiker Yaqub Məmmədovun sözlərinə görə, artıq bu istiqamətdə həm iqtidar, həm də müxalifətin bəzi nümayəndələri tərəfindən təşəbbüslər göstərilir: "Cəmiyyətdə də bu fikir formalaşıb ki, dialoq lazımdır. Tələsik olmasa da dialoqda müzakirə ediləcək məsələlər baş tutacaq".**

**Y.Məmmədovun bildirdiyinə görə, dialoqun baş tutması üçün vasitəçilik missiyasını üzərinə götürmək barədə tərəflərə mətbuat vasitəsilə mesaj göndərib: "Bu, özü də vasitəçiliyin bir formasıdır. Əgər tərəflər çıxış etsə ki, dialoqda ziyalılar iştirak etməlidir, onda danışıqlarda məmnuniyyətlə iştirak edərəm. İstərdim ki, dialoq baş tutsun. Bu məsələdə mənim hansısa xidmətim lazımdırsa, onu yerinə yetirərəm".**

**Keçmiş spikerin fikrincə, dialoq zamanı hansısa tələbin ortalığa qoyulması düzgün deyil: "Dialoq qeyd-şərtsiz olmalıdır".**